# Almaniyadan qonağımız var...



Bu günlərdə Sumqayıt şəhəri Ə. Kərim adına Poeziya evində 30 il qürbət ölkədə - Almaniyada yaşayan türkmən şairi, "Qürbətçi Türkmən Şair və Yazarlar Birliyi"nin təsisçisi Burhan Yaralı ilə qələm sahiblərinin görüşü keçirildi.

"Yazarların yaradıcılıq görüşü, tükdilli ölkələrlə ədəbi münasibətlər" adlı dəyirmi masanın təşkilatçısı, AYB-nin Sumqayıt bölməsinin məsləhətçisi, şair Xatirə Fərəcli tədbiri giriş sözü ilə açdı.

Təşkilatçı X.Fərəcli qonağı tədbir iştirakçılarına təqdim etdikdən sonra Sumqayıt Poziya evinin rəhbəri, şair İbraim İlyaslı, əməkdar jurnalist, yazıçı Eyruz Məmmədov, həmçinin, qələm sahiblərindən Süleyman Hüseynov, Giya Paçxataşvili, Xəqani Abbasəli Öztürk, Əliyar Fərzəliyev, Nəsrəddin Məhəmmədoğlu, Məryəm Aslanqızı, Mədaxil Cavadlı, Aygün Hacıyeva, Rəna Təbəssüm və başqaları mövzu ilə bağlı çıxış edərək, fikir mübadiləsi apardılar.

Sonda söz qonağa - şair Burhan Yaralıya verildi. O, səmimi qarşılanmaya, göstərilən diqqətə və maraqlı keçən görüşə görə, təşkilatçıya və əməyi keçən insanlara öz minnətdarlığını bildirdi. İştirakçılarla fikirlərini bölüşən şair, bir neçə şeirini söylədikdən sonra, təkliflərini bildirdi. O, təsisçisi olduğu və Almaniyada nəşr olunan "Qürbət yanğısı" jurnalının bir nömrəsinin dəyirmi masada iştirak edən qələm əhlinin yaradıçılığına həsr olunacağını vurğuladı. Həmçinin, öz şəxsi vəsaiti hesabına, yaxın zamanlarda qələm sahiblərinin yaradıcılığını əks etdirən Almanax kitabın nəşr olunacağına söz verdi.

Tədbirin sonunda təşkilatçı Xatirə Fərəcli "Dəyirmi masa" iştirakçılarına, xüsusən də tədbirin keçirilməsinə şərait yaradan və dəstək olan Sumqayıt Regional Mədəniyyət İdarəsinin müdiri Rəşad bəyə və Sumqayıt Poeziya evinin rəhbəri İbrahim İlyaslıya "Təşəkkürnamə" təqdim etdi.

***Aygün HACIYEVA***